

SƏYAVUŞ YUSİFOV

## GƏZİRƏM

Qara buludlar gəzir, illərdir başım üstə,
Həsrət çəkib yanıram, dərdlərim dərd üstünə,
Qızışmadım oduna, boğuldum hey tüstünə,
Ocağımı söndürüb, közüylə əlləşirəm,
Sevincimi itirib, həsrətimi gəzirəm.

Yurd-yuvamı itirib, qərib elə düşmüşəm,
Dərd çələngin içmişəm, eşq odunda yanmışam,
Həsrət qalıb sevgimə, bir qurbanlıq olmuşam,
Ocağımı söndürüb, közüylə əlləşirəm,
Sevincimi itirib, həsrətimi gəzirəm,

Savaşlar çox etmişəm, igidləri yenmişəm,
Sonra baxıb yuxarı, qara bulud görmüşəm,
Hər an başımın üstə, Allahımı sevmişəm,
Ocağımı söndürüb, közüylə əlləşirəm,
Sevincimi itirib, həsrətimi gəzirəm,

Gəzirəm hey gəzirəm,  axtarıram yarımı,
Məni məndən eləyən gülüzlü nigarımı,
Hərdən xəyallar qurub, görürəm cananımı,
Ocağımı söndürüb,közüylə əlləşirəm,
Sevincimi itirib, həsrətimi gəzirəm.

Səyavuş ruhun gəzir, el-obanı,kəndini,
Ölüb qutarmısan sən, rahat buraq sevgini,
O dünyada doyuncan,sevərsən sevgilini,
Ocağın gur alışar, közüylə oynamazsan,
Sevincinə qovuşub, həsrətini taparsan...

## BU QATAR

Bu qatar baş alıb, hayana gedir,
Nə səmti bəllidir, nə özü bəlli.
Elə bil, gedişi bir ürkək atdır,
Ayağı sekildir, yalmanı telli.
Qaçır haqsızlıqdan, sevgidən qaçır,
Min atlı düşübdür, sanki dalıyca,
Sevgi çirkabında itib-batıbdır,
Həsrətin yaşayıb, bu at doyunca.

Daha lazım deyil, sevgi cahana,
Ölüb sevgiləri çox insanların,
Sevgini çıxarıb, qul bazarına,
Qul kimi satırlar, öz vicdanların.
Çox təəssüf,özüm də bu qatardayam,
Öldürüb sevgimi, çıxıb gedirəm,
Artıq yaşamıram, xülyalardayam,
Özüm öz evimi yıxıb, gedirəm.
Gedirəm qovuşam, öz həsrətimə,
Bəlkə torpaq altda, sevgimi tapam,
Gizlincə gələcək, qəbrim üstünə,
Həsrətim, qəbrimdə sevgi tapacam.
Ağlama sevgilim, ağlama, bəsdi,
Süz bir az nurundan, doyunca içim,
Bu dərd, Səyavuşun ömrünü kəsdi,
Gedim o dünyada evimi tikim.

## GÖZLƏRƏM

Yaşımın üstünə hər il yaş gəlir
Bulanır, ay aman, görmür gözlərim,
Həsrətdən bükülür, qəddim əyilir,
Ancaq xəyallarda sezir gözlərim.

Cavan canım həsrət çəkdi, çürüdü
Adın çəkiləndə titrər əllərim,
Taqətim qalmadı, dizim büküldü,
İllər ötdü, heç gülmədi gözlərim.

Hərə öz kefində, öz damağında
Məni için-için yeyir dərdlərim
Hər kəs öz evində, öz komasında
Səni diyar-diyar gəzir gözlərim.

Min təbib, min loğman gəlsə üstümə,
Əlacı tapılmaz, sağalmaz dərdim
O incə əlləri çəksən gözümə
Tapar şəfasını, görər gözlərim.

Arılar güllərdən bal çəkən kimi
Səyavuş, üstünə çökər dərdlərin
Sazın mizrabıtək, o sarı simi
Sığallar telimi, sönməz gözlərim.

## İNDİ SƏN HARDASAN, İNDİ MƏN HARDA?

Sakitlik çökübdü, evlərimizə
Laylasın çalırdı, Həkəri bizə
Faciə gəlibmiş ellərimizə
Elə bil, yatmışdıq fil qulağında
İndi sən hardasan, indi mən harda?

Bu sükut çevrildi hərb meydanına
Kəndimiz tutuldu güllə-borana
Hamımız düşmüşdük, düşmən toruna
Ata bir yandaydı, oğul bir yanda
İndi sən hardasan, indi mən harda?

Faciə yaşatdı həyat bizlərə
Çoxu əsir düşdü, oldu biçarə
Dağıldı, məhv oldu, itdi şəcərə
Elimiz, obamız qalandı odda
İndi sən hardasan, indi mən harda?

Kiminin cəsədi çöllərdə qalddı,
Kiminin cəsədin sellər apardı
Kimi qaçıb canın bir zor qurtardı
Babamdan, atamdan ayrı qalanda
İndi sən hardasan, indi mən harda?

Allah qovuşdurdu, atam-babamı
Qaçırıb gətirdim bacım-anamı
Həmin gün anladım, fani dünyanı
Kəndim, elim, obam qaldı o tayda
İndi sən hardasan, indi mən harda?

Bu dünya dağ çəkib bizi dağladı
Alnımıza qaçqın damğası yazdı
Diriykən öldürüb qəbrimi qazdı,
Elimi axtardım dağda, aranda
İndi sən hardasan, indi mən harda?

Bir sevgi yaşadım elim tək nakam
Elimə, sevgimə həsrət qalmışam
İndi cəfa çəkən qərib olmuşam
Bir alın yazısı bu Səyavuşda
İndi sən hardasan, indi mən harda?

## HARDASAN

Gözlərim axtarır hər yerdə səni,
Yerdə də, göydə də, hər zaman səni.
Həkk olub yaddaşa, məhv edir məni,
Dərdimi bölənim, söylə, hardasan?

Səni görməyəndə dərdim böyüyür,
Hərəsi bir dağa, bir selə dönür.
Başımda ağlımı ürəyim döyür,
Sevincim, kədərim, söylə, hardasan?

Həkəri, Bərgüşad, vətən həsrəti,
Qubadlı, Zəngilan Laçının dərdi.
Kəlbəcər, Cəbrayıl Xocalı dərdi,
Faciə-qisasım, tez gəl, hardasan?

Vətən dərdi dağlayıbdı sinəmi,
Od vurub odladıb,mahv edib məni.
Elə bil əridib,mum edib məni,
Mənim dərd ortağım, söylə, hardasan?

Səyavuş vətənə qalıbdır həsrət,
Hər gün şəhid verən, əzmkar millət.
Komandan əmr ver, tamlaşsın dövlət,
Təbrizli, Şuşalı elim, hardasan?

## QUMRU QUŞU...

Pəncərəm önündə bir ruh boylanır,
Hər səhər yuxudan durquzur məni.
Qəlbimin küncündə atəşlər yanır,
Çevrilib bir quşa qoruyur məni.

Sən demə, anammış, quşa çevrilib,
Çovğunda, boranda, qarda, yağışda.
Pəncərəm önündə yuva bağlayıb.
Durub əsgər təki, anam keşikdə.